# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 131** **Bakı şəhəri, 4 aprel 2022-ci il**

***"Koronavirus (COVID–19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" 2020-ci il 11 iyun tarixli 199 nömrəli, "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi"nin və "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi"nin təsdiq edilməsi barədə" 2020-ci il 23 sentyabr tarixli 350 nömrəli, "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli, "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"də dəyişiklik edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 516 nömrəli və "Hava limanının nəzarət edilməyən zonalarının təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2021-ci il 9 iyul tarixli 199 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləş-dirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Koronavirus (COVID–19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789; 2021, № 5, maddə 504, № 6 (IV kitab), maddələr 662, 673, № 7, maddə 884, № 10, maddə 1197; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 408 nömrəli və 2022-ci il 22 yanvar tarixli 27 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qərarın 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Koronavirus (COVID–19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın 2.1.4-1-ci yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1223; 2021, № 8, maddə 966) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi"nin 5-1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

**3.** "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 dekabr tarixli 384 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissədə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 3-cü hissəsinin birinci abzasında (hər iki halda) və 6-cı hissəsinin "Dövlət qurumunun adı" sütununun 1-ci və 63-cü sətrlərində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617) ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın 3.1.5-ci yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 iyul tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 862) ilə təsdiq edilmiş "Hava limanının nəzarət edilməyən zonalarının təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 1.3-cü bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 8 aprel.- S.7.